

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 153 (23.795)

24 avqust 2021-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının 6-cı sərhəd zastavası üçün yeni xidmət və yaşayış kompleksi istifadəyə verilib





Avqustun 21-də – "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının yaranmasının ildönümü ərəfəsində 6-cı Sərhəd Zastavası üçün yeni xidmət və yaşayış kompleksi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

"Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının komandiri, general-leytenant Niyaməddin Tağıyev Ali Məclisin Sədrinə raport vermişdir.



Bildirilmişdir ki, 6-cı sərhəd zastavası 1932-ci ildən fəaliyyət göstərir və xidmət sahəsi 14 kilometrdir. Yeni xidmət və yaşayış kompleksinin inşasına 2020-ci ilin sentyabr ayında başlanılmışdır. Kompleks qərargah, 8 mənzilli yaşayış binası, hamam-camaşırxana, qazanxana, əşya, ərzaq, tərəvəz, yanacaq-sürtkü materialları və silah anbarları, 2 avtomobil saxlancı və yardımçı binadan ibarətdir. Ərazidə 65 kilovoltluq transformator yarımstansiyası quraşdırılmış, generator qoyulmuş, avtomobillərin yuyulması yeri, xidməti heyvanların saxlanması və əmlakları üçün anbarlar və mətbəx yaradılmış, helikopter meydançası inşa edilmişdir.

Sərhəd zastavasının xidməti ərazisinin və dislokasiya yerinin mühafizəsi üçün 13 sabit və 2 idarəolunan kamera sistemi, 1 kilometr radiusa malik 2 projektor quraşdırılmış, 4 müşahidə qülləsi təmir olunmuşdur. Bununla da 1-ci sərhəd komendantlığı tam şəkildə kamera sistemi ilə təchiz edilmişdir. Xidməti ərazidə 14 kilometr məsafədə mühəndis-texniki çəpər və işarəverici qurğu quraşdırılmış, sərhəd yolları yenidən çəkilmiş, isinmə məntəqəsi və körpü əsaslı təmir olunmuşdur.

Qərargah binasında əsgərlər üçün 48 yerlik yataqxana, subay zabitlər üçün 8 yerlik istirahət otağı, sinif, silah, rabitə və iş otaqları, 28 yerlik yeməkxana, mətbəx, anbar, qurutma otağı və sığınacaq vardır. Yaşayış binasındakı hər biri iki otaqdan ibarət olan 8 mənzil mebel dəstləri, mərkəzləşmiş istilik sistemi, televizor, soyuducu və paltaryuyanla təmin olunmuşdur.

Ali Məclisin Sədri sərhədçi ailələri ilə görüşmüş, onları xidməti yaşayış binasının istifadəyə verilməsi münasibətilə təbrik edərək demişdir: Xidməti ərazidə istifadəyə verilən yaşayış binasında sizlər yaşayacaqsınız. Bura sizləri bir ailə kimi birləşdirəcəkdir. Sizin yaşayışınız, uşaqların asudə vaxtlarının səmərəli keçməsi, eyni zamanda xidmətin təşkili üçün hər cür şərait yaradılıb. Bütün bunlar həm rahat yaşayışı, həm də xidmətin düzgün təşkilini təmin edəcək. Sizlər də yaradılanları gərək qoruyasınız ki, sizdən sonra buraya gələnlər də rahat yaşaya və xidmətlərini davam etdirə bilsinlər. Bu, Azərbaycan dövlətinin öz ordusuna, onun zabitlərinə və ailələrinə olan diqqətidir. Yaradılan şərait imkan verəcək ki, dövlət sərhədləri etibarlı qorunsun, Vətənə sədaqətlə xidmət təşkil edilsin.

Ali Məclisin Sədri sərhədçi ailələrinə yeni mənzillərində rahat yaşayış, xidmətdə olanlara isə xidmətlərində uğurlar arzulamışdır.

Sona Orucova sərhədçi ailələri adından göstərilən qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Ali Məclisin Sədri sərhədçi uşaqlarına hədiyyələr təqdim etmiş, mənzillərdə yaradılan şəraitlə tanış olmuşdur.

Sonra şəxsi heyətlə görüş olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov sərhədçiləri salamlamış, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının yaranmasının ildönümü və 6-cı sərhəd zastavası üçün yeni xidməti-yaşayış kompleksinin istifadəyə verilməsi münasibətilə "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının şəxsi heyətini və sərhədçi ailələrini təbrik edərək demişdir: Azərbaycan müstəqillik qazandıqdan sonra milli sərhəd qoşunlarının yaradılmasına ilk dəfə ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvandan başlanmışdır. Həmin dövrdə Sovetlər Birliyinin muxtar respublikadakı sərhədlərində 41-ci Sərhəd Dəstəsi dayanırdı. Sərhədin Ordubad və Sədərəkdən keçən hissəsinin mühafizəsini aparan sərhəd zastavaları isə Ermənistandakı sərhəd dəstəsinin tabeliyində idi. Ulu öndərin təşəbbüsü ilə həmin zastavalar Naxçıvandakı 41-ci sərhəd dəstəsinə birləşdirildi. Bunun ardınca 41-ci sərhəd dəstəsi də bütün əmlakı və silah-sursatı ilə birlikdə Naxçıvan Muxtar Respublikasının tabeliyinə verildi. 1992-ci il avqustun 22-də Naxçıvandakı sərhəd dəstəsində üçrəngli bayrağımız qaldırıldı və bununla da Azərbaycanın ilk milli sərhəd dəstəsinin təməli qoyuldu. Ümummilli liderimiz Heydər Əliyev bu barədə deyirdi: ***"Azərbaycan öz müstəqil yolu ilə getməyə başlayanda respublikamızda sərhəd dəstələri yaratmaq zərurəti meydana çıxdı. O cümlədən Naxçıvan Muxtar Respublikasında da bu problemi həll etmək lazım idi. Biz bu problemi həll etdik. Rusiya Federasiyası ilə danışıqlar apardım və nəhayət, o vaxt burada yerləşmiş, keçmiş Sovetlər İttifaqına mənsub olmuş, sonra Rusiya Federasiyasının sərəncamında olan 41 nömrəli sərhəd dəstəsinin bütün əmlakı Naxçıvan Muxtar Respublikasının sərəncamına keçdi. Bu, bizim tariximizdə çox mühüm hadisədir".***



Ali Məclisin Sədri demişdir: Dahi şəxsiyyət Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra da ordu quruculuğu tədbirlərinin tərkib hissəsi kimi sərhəd qoşunlarının inkişafını, xüsusilə də Naxçıvanda nümunəvi və peşəkar sərhəd qüvvələrinin formalaşdırılmasını diqqətdə saxlamışdır. Bu yolu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin qayğısı ilə muxtar respublikada sərhəd qoşunlarının təşkilatlanması istiqamətində sistemli tədbirlər görülmüşdür. Dövlət başçısının müvafiq sərəncamları ilə 2004-cü ildə "Naxçıvan" Sərhəd Dəstəsinin bazasında "Naxçıvan" Sərhəd Diviziyası, 2015-ci ildə isə "Naxçıvan" Sərhəd Diviziyasının bazasında "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyası yaradılmışdır.

Qeyd olunmuşdur ki, müstəqillik illərində muxtar respublikada sərhədlərimizin mühafizəsi işi təkmilləşdirilmiş, xidməti-döyüş fəaliyyəti gücləndirilmişdir. Ötən dövrdə diviziyada geniş quruculuq işləri aparılmış, mərkəzi qərargah, sərhəd komendantlıqları və zastavaları üçün müasir komplekslər tikilmiş, şəxsi heyətin peşəkarlığı artırılmış, müasir idarəetmə sistemi yaradılmışdır. Sərhədçilərin sosial-məişət şəraiti də yaxşılaşdırılmış, zabit-gizir ailələri üçün xidməti yaşayış binaları istifadəyə verilmişdir. "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının şəxsi heyəti yaradılan şəraitdən səmərəli istifadə edərək qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirir, 234 kilometrlik dövlət sərhədimizi etibarlı mühafizə edir.

Ali Məclisin Sədri xidməti-döyüş fəaliyyətlərini uğurla yerinə yetirdiklərinə görə "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının şəxsi heyətinə təşəkkürünü bildirmişdir.

"Sərhəd ölkənin müstəqilliyini təsdiq edən amil, sərhədçi olmaq isə böyük məsuliyyət və şərəf işidir", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, ona görə də hər bir sərhədçi döyüş hazırlığını daim artırmalı, silah və texnikalardan istifadə vərdişlərinə mükəmməl yiyələnməli, sərhədlərin mühafizəsi ilə yanaşı, həm də təxribatçı qüvvələrə qarşı mübarizə aparmalı, fədakarlıq göstərməlidir. Sərhədi qorunan ölkədə inkişaf və sabitlik davamlı olur. Ölkə Prezidenti cənab İlham Əliyevin də dediyi kimi: ***"Sərhəd Qoşunlarının möhkəmlənməsi müstəqilliyimizin möhkəmlənməsi deməkdir. Çünki hər bir ölkənin ərazisi onun sərhədindən başlayır. Bizim sərhədlərimiz***

*Ardı 2-ci səhifədə*





***dost üçün açıq, düşmən üçün bağlı olmalıdır. Azərbaycanın hərtərəfli inkişafı üçün, Azərbaycanda sülhün, sabitliyin, təhlükəsizliyin daha da möhkəmlənməsi üçün sərhəd nəzarəti ən yüksək səviyyədə olmalıdır”.***



Ali Məclisin Sədri şəxsi heyətə bu vəzifələrin icrasında uğurlar arzulamış, zastava kompleksinin qurulmasında əməyi olanlara təşəkkürünü bildirmişdir.

“Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının komandiri, general-leytenant Niyaməddin Tağıyev çıxış edərək demişdir: Dövlətimizin qayğısı ilə “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının maddi-texniki bazasının möhkəmləndirilməsi daim diqqət mərkəzində saxlanılır, hərbi qulluqçulara qayğı göstərilir. Bu gün muxtar respublikada sərhədlərin mühafizəsi, bu sahədə həyata keçirilən quruculuq işləri yeni mərhələyə qədəm qoymuş, sərhədçilərin xidmət və məişət şəraiti əsaslı şəkildə yaxşılaşdırılmışdır. 6-cı sərhəd zastavası üçün yeni kompleksin istifadəyə verilməsi də bu sahədə görülən işlərin davamıdır. Niyaməddin Tağıyev yaradılan şəraitə görə minnətdarlıq etmişdir.

Şəxsi heyət “Hamı bir nəfər, bir nəfər hamı üçün” şüarını səsləndirmişdir.

Əsgər Ariz Əhmədov minnətdarlıq edərək demişdir: “Yaradılan şəraitin qarşılığında biz də Vətən sərhədlərini göz bəbəyimiz kimi qoruyacaq, sərhədçi adını daim uca tutacaq, göstərilən etimadı doğruldacağıq”.

Zastavada silah-sursatı doldurub-boşaltma yeri, sıra meydanı, voleybol və futbol meydançası, atəş, mühəndis hazırlığı yerləri, idman və təlim şəhərciyi salınmışdır. Şəxsi heyətin artilleriya və aviasiya zərbələrindən qorunması üçün yeraltı sığınacaq və müdafiə səngərləri düzəldilmişdir. Ərazidə istirahət guşəsi, uşaq əyləncə yerləri və nəzarət-buraxılış məntəqəsi yaradılmışdır.



Zastavanın həyəti də abadlaşdırılmış, müasir işıqlandırma sistemi və qazanxana quraşdırılmış, 4 subartezian quyusu qazılaraq nasos qoyulmuş, asfalt örtüyü verilmiş, kanalizasiya xətti çəkilmiş, 2 hektar sahədə yaşıllıq salınmış, ərazidə 1700 meyvə tingi, 635 yolka, 36 çinar, 365 dekorativ ağac və 1300 müxtəlif gül kolu əkilmişdir.

Həmin gün “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasına “NİVA” markalı dörd xidməti avtomobil təqdim olunmuşdur. Ali Məclisin Sədri avtomobillərə baxmışdır.

Ali Məclisin Sədri yaradılan şəraitə uyğun xidmətin təşkili barədə müvafiq tapşırıqlar vermişdir.

Gətirilmiş ərzaq məhsulları zastavanın anbarına təhvil verilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## “Füzulinin azad olunmasına görə” medalı təqdim edilib



Azərbaycan Ordusunun şəhid zabiti, baş leytenant Elnur Zeynalov, Vətən müharibəsi iştirakçıları kiçik çavuş Nifti Məmmədov və əsgər Mövləddin Süleymanov Füzuli rayonunun erməni işğalından azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək göstərdikləri şəxsi igidlik və şücaətə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2020-ci il 25 dekabr tarixli Sərəncamı ilə “Füzulinin azad olunmasına görə” medalı ilə təltif olunublar. Avqustun 21-də medalın təqdim edilməsi məqsədilə Naxçıvan Şəhər İcra Hakimiyyətində tədbir keçirilib.

Tədbirdə Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov çıxış edərək bildirib ki, bu gün ölkəmizdə və muxtar respublikamızda ordu quruculuğuna xüsusi diqqət yetirilir. Bu sahədə görülən işlərin, həyata keçirilən tədbirlərin nəticəsidir ki, Vətən müharibəsi Böyük Qələbə ilə başa çatdı. 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən əməliyyatlarda hərb tarixinə yenilik kimi düşən strategiya ortaya qoyan Azərbaycan Ordusu ən müasir silahlardan istifadə etməklə qısa müddətdə Ermənistan silahlı qüvvələrini darmadağın etdi, tarixi ədaləti bərpa edərək işğala son qoydu, torpaqlarımızı düşməndən geri aldı.

Qeyd edilib ki, digər igid oğullarımız kimi – Naxçıvan şəhər sakinləri kiçik çavuş Nifti Məmmədov və əsgər Mövləddin Süleymanov da Vətən müharibəsində böyük şücaət və qəhrəmanlıq göstəriblər. Hər ikisi ölkə başçısı tərəfindən “Füzulinin azad olunmasına görə” medalı ilə təltif olunub.

Vurğulanıb ki, Vətən uğrunda canını qurban verənlərin əziz xatirəsi qəlbimizdə daim yaşayacaq. Həmin igid oğullarımızdan biri də 1994-cü ildə Naxçıvan şəhərində anadan olmuş Zeynalov Elnur Elsevər oğludur. Minlərlə qəhrəman hərbçilərimiz kimi, o da 2020-ci il sentyabrın 27-də silaha sarılaraq döyüşlərə atılıb, hərbi əməliyyatlarda iştirak edib, düşmənə layiqli cavab verib, işğal altında olan yurd yerlərimizin azad olunmasında əsl qəhrəmanlıq nümunəsi göstərib. O, xidməti dövründə “Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi”, “Azərbaycan Ordusunun 100 illiyi” yubiley medalları, ölümündən sonra “Vətən uğrunda”, “Cəbrayılın azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə”, “Qubadlının azad olunmasına görə” medalları və “Qarabağ” ordeni ilə təltif edilib. Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçusu Elnur Zeynalov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2020-ci il 25 dekabr tarixli Sərəncamına əsasən “Füzulinin azad olunmasına görə” medalı ilə təltif olunub.

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan şəhər idarəsinin rəis müavini Sultan Zamanov çıxışında igid oğullarımızın Vətən müharibəsindəki şücaətlərindən, dövlətimizin şəhid ailələrinə, qazilərə və müharibə iştirakçılarına göstərdiyi qayğıdan danışıb.

Sonra Azərbaycan Ordusunun şəhid zabiti, baş leytenant Elnur Zeynalovun atası Elsevər Zeynalova, kiçik çavuş Nifti Məmmədova və əsgər Mövləddin Süleymanova “Füzulinin azad olunmasına görə” medalı təqdim olunub.

Şəhid atası və Vətən müharibəsi iştirakçıları verilən yüksək qiymətə, şəhid ailələrinə, qazilərə, müharibə iştirakçılarına göstərilən xüsusi diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

**Nail ƏSGƏROV**

*Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Gənclər Fondu, Həmkarlar İttifaqları Şurası və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə keçirilən şəhid və qazi övladları üçün “Zəfər Düşərgəsi” başa çatıb.*

## Şəhid və qazi övladlarının iştirakı ilə təşkil olunan *“Zəfər Düşərgəsi”* başa çatıb



Üç gün davam edən düşərgənin ilk günündə iştirakçıların Ağbulaq İstirahət Mərkəzi ilə tanışlığı təşkil edilib, Naxçıvan şəhərindən dəvət edilmiş psixoloq tərəfindən onlarla psixoloji seanslar aparılıb. Günün ikinci yarısında isə uşaqların vaxtının əyləncəli təşkili məqsədilə yapon kağız sənəti – oriqami üzrə ustad dərsi keçilib. Birinci günün sonunda uşaqlar üçün film nümayişi də təşkil olunub.

“Zəfər Düşərgəsi”nin ikinci günündə Naxçıvan Dövlət Kukla Teatrının düşərgəyə gəlişi iştirakçılar tərəfindən böyük sevinclə qarşılanıb. Günün birinci yarısında teatrın tamaşaları, sosial könüllülərin iştirakı ilə uşaqlar üçün müxtəlif əyləncəli oyunlar da təşkil olunub. Günün ikinci yarısında isə “Zəfər Düşərgəsi”ndə sağlamlıq imkanları məhdud uşaqlardan ibarət “Ümid” musiqi qrupunun və Şahbuz Rayon Mədəniyyət Şöbəsinin “Batabat” instrumental ansamblının konsert proqramı baş tutub.

Çay süfrəsi ətrafında keçirilən tədbirdə iştirak edən Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev bildirib ki, qazi və şəhid ailələrinin sosial müdafiəsi istiqamətində həyata keçirilən tədbirlər muxtar respublikamızda sistemli və ardıcıl xarakter daşıyır, bu istiqamətdə bir sıra tədbirlər reallaşdırılır. Nazir əlavə edib ki, Vətən müharibəsindən sonra bu tədbirlərin əhatə dairəsi daha da genişləndirilib, keçirilən tədbirlərdə şəhid ailələrinin, qazilərimizin iştirakı ənənəvi xarakter alıb. Bu gün keçirilən “Zəfər Düşərgəsi” layihəsi də Vətən müharibəsində əldə edilmiş tarixi Qələbəyə ithaf olunub.

Sonra Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Anar İbrahimov çıxış edərək belə tədbirlərin əhəmiyyətindən danışıb. Qeyd olunub ki, bu kimi tədbirlər, həm də gənclərə vətənpərvərlik ruhunun aşılanması və onların bu istiqamətdə formalaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Vətən müharibəsində qazanılan tarixi zəfər də ölkəmizdə, eləcə də onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda formalaşmış dövlət-xalq-ordu birliyinin layiqli nəticəsidir. Qeyd edək ki, tədbirin davamında uşaqlara hədiyyələr təqdim olunub.

“Zəfər Düşərgəsi”nin sonuncu günü də iştirakçılar üçün yaddaqalan olub. Həmin gün düşərgədə müxtəlif əyləncəli oyunlar oynanılıb, iştirakçılar rəsm və milli yeməklərin hazırlanması üzrə keçilən ustad dərslərində iştirak ediblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# İbrahim Yusifoğlunun poetik dünyası və uğurları

İbrahim Yusifoğlu milli şeirimizin istedadlı və daim axtarışlarda olan nümayəndələrindən biridir. O, şeiri vərdiş, yaxud mütaliədən çox istedadla təbii ilhamın axarında yazan şairlərdəndir. İstedad İbrahim Yusifoğluna həyatı və insanları şairanə şəkildə, poetik görkəmdə duymaqda və görməkdə bələdçilik edir. İbrahim Yusifoğlunda zəhmət faktoru istedad amili ilə vəhdətdədir. Uzaq dağ kəndində, təmiz və səfalı, çiçəkli, bulaqlı təbiətin qoynunda böyüyüb boya-başa çatan, bütün kənd uşaqları kimi mənsub olduğu ailənin təsərrüfat həyatında mükəmməl zəhmət dərsləri keçmiş İbrahim Yusifoğlunun yaradıcılığında istedad şeirin ruhu və qanadı, zəhmət isə mahiyyəti və bəzəyidir. Sözlərdən, fikirlərdən, orijinal bədii təsvir və ifadə vasitələrindən şeirin "inşaat materialları" kimi özünəməxsus şəkildə, yaradıcılıqla faydalanmağı bacaran İbrahim Yusifoğlu, sanki ilhamlı şeirlərinin istedadlı və zəhmətkeş bənnasıdır. Onun qələmindən çıxmış ən yaxşı şeirlər yaratdığı poeziya sarayının kərpicləri kimi uzunömürlüdür. "Ruhuma bircə bu yağış doğmadı" şeirində etiraf etdiyi kimi:

*Mənim şeirlərim könül varımdı,*
*Onlarda həm sevinc, kədər varımdı.*
*Qəlblərə ələnən yağışlarımdı,*
*Ruhuma bircə bu yağış doğmadı.*

Müşahidələr göstərir ki, İbrahim Yusifoğlu əksər məqamlarda yaşadığı mühitin qayğılı və rəngli şeiriyyətini ədəbiyyata gətirməyi bacarır. Şeirlərini diqqətlə oxumaqla onun hansı ictimai-mənəvi və ya maarifçi mühitdə nəfəs aldığını hiss etmək olur. O, şeirlərində özünü əhatə edən belə bir təbii və rəngarəng mühitin dilində danışmağa səy göstərir. Və əksər məqamlarda bunu yüksək peşəkarlıqla həyata keçirməyi bacarır. Bundan başqa, İbrahim Yusifoğlunun şeirləri həm də, sanki onun təmsil olunduğu mühitin bənzərsiz təbiətinin poetik coğrafiyasıdır. Şair çox vaxt uzun illər yaşadığı coğrafiyanın bütün fəsillərini ilhamla yazılmış şeirlərində və poeziyanın müxtəlif çalarlarındakı axtarışlarında ədəbiyyat faktına çevirməyə nail olmuşdur. Qoynunda doğulduğu dağlı-aranlı qədim Şərur Çuxurunun, Saralı-Xançobanlı Arpaçayın təbii görkəmi, həyat ritmi İbrahim Yusifoğlunun şeirlərində özünün əsl poetik mənasını və bədii obrazını tapa bilmişdir. Buna baxmayaraq, İbrahim Yusifoğlunun palitrasında "baharın tacı" sayılan bənövşənin və badam ağacının rəng çalarları üstünlük təşkil edir. Adama elə gəlir ki, İbrahim Yusifoğlu Şərurun qonur, çılpaq dağlarını və Arpaçay vadisini alaseyrək çiçəkli badam ağacı sifətində görür. İbrahim Yusifoğlunun təbiət şeirləri, sanki badam ağacında bənövşə çiçəyidir. Həyatı barmaqları bənövşəyi mürəkkəbli şagirdlərin və müəllimlərin arasında keçən İbrahim Yusifoğlunun bir çox misraları isə həm rəng çalarlarına, həm də poetik mənasına görə bənövşə çiçəyinə həsr edilmiş ən yaxşı şeirlər olaraq fərqlənir, yadda qalır:

*... Şərur Çuxurunda baharın tacı,*
*Gül-çiçək könlümü məst eyləmişdi.*
*Gözlərim önündə badam ağacı*
*Bənövşə çiçəyi çiçəkləmişdi.*
*... Bəlkə, müəllim ömrü yaşadığından*
*Badam bənövşəyi al çiçəkləyib?!*
*Bəlkə, şagirdlərin barmaqlarından*
*Şehli çiçəklərə mürəkkəb dəyib?!*

***(Bənövşə çiçəkli badam ağacı...)***

Zəhməti və istedadı özündə birləşdirən İbrahim Yusifoğlu ən yüksək insani keyfiyyətləri ilə də seçilir. O, sadəcə, yarım əsrə yaxın müəllim işlədiyi üçün deyil, həm də dərin mənəvi keyfiyyətə malik olmağı şəxsiyyət üçün dəyər kimi qəbul etdiyinə görə əsl müəllim ömrü yaşayır. İbrahim Yusifoğlunun şeirlərində əxlaqi-mənəvi dəyərlər ilhamla tərənnüm olunur. Çox yaxşı xüsusiyyətdir ki, bu qəbildən olan şeirlərində o, oxucusuna əxlaqi dərs keçmir, əksinə, insanın pak mənəviyyatını, yüksək mənəvi xüsusiyyətlərini obrazlı şəkildə təqdim etməklə diqqəti həmin keyfiyyətlərin aliliyinə yönəldir. Bu mənada, İbrahim Yusifoğlu həyatda olduğu kimi, şeirlərində də həyatı obrazlı şəkildə qavrayan və ifadə edən müəllimdir. Onun maarifçi baxışları ilə maarifçilik fəaliyyəti bir-birini tamamlayır. Buna görədir, şairin müəllim ömrü haqqında, müəllimlərə və məktəbə, şagirdlərə həsr olunmuş şeirləri yaxşı alınır. Oxucuları tərəfindən həvəslə oxunan, qəlblərdə özünə yer tapmış "Safdır, müqəddəsdir, müəllim ömrü!" şeiri müəllimlər haqqında mahnı kimi səslənir:

*Ən parlaq Ulduzu, nur saçan Aydı,*
*Dalğalı dənizdi, ləpəli çaydı.*
*Ömrü ömürlərə paylanan paydı,*
*Safdır, müqəddəsdir, müəllim ömrü!*

*Həlimlik gözünün qarasındadı,*
*Əzizlik qəlbinin parasındadı,*
*Hər an şagirdlərin arasındadı,*
*Kövrəlmiş bir səsdi müəllim ömrü!*

Şair, eyni zamanda Naxçıvan Muxtar Respublikasında yaşayan qabaqcıl müəllimlər haqqında "Safdır, müqəddəsdir müəllim ömrü!" adlı seriyasından yazıb çap etdirdiyi altı kitabda onlarla qabaqcıl müəllimin iş təcrübəsindən və həyat fəaliyyətindən, məktəblərdə keçən ömür yollarından bəhs edən oçerkləri (1999-2017) oxucularına təqdim etmişdir. İbrahim Yusifoğlu Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi kimi respublika müəllimlərinin XII qurultayının (1998) iştirakçısı olmuşdur.

İbrahim Yusifoğlu yeni dövr Azərbaycan maarifçi şeirinin əsas yaradıcılarından biri kimi böyük ədəbiyyata şərəflə xidmət edir. Onun məktəb şeirləri və uşaq poeziyası maarifçi şeirlərinin aparıcı qanadını təşkil edir. İbrahim Yusifoğlu müasir mərhələdə müəllim və məktəb haqqında ən yaxşı şeirlərin müəllifidir. O, uşaq ədəbiyyatı istiqamətindəki fəaliyyətini ardıcıl olaraq uğurla davam etdirən, bu istiqamətdə təsirli, yaddaqalan şeirlər meydana qoyan istedadlı şairdir. İbrahim Yusifoğlunun, demək olar ki, bütün kitablarında müəllimlər və uşaqlar üçün nümunəvi şeirlər vardır. Bununla belə, şair "Seçilmiş əsərləri"nin ayrıca bir cildini uşaq ədəbiyyatına həsr etmişdir. İbrahim Yusifoğlu müstəqillik dövrü uşaq ədəbiyyatında uşaq ədəbiyyatı külliyyatı yaratmış şairlərdəndir. Bundan başqa, o, "Futbolçu, topçu, gopçu", "Arpaçayın uşaqları", "Azərbaycan Vətənimdir", "Vətən nəğməsi", "Göy yerə zəng eyləyir" kitablarını balaca oxuculara hədiyyə etmişdir. 2020-ci ildə "Payızda üşüyən çiçək" adlı uşaq şeirləri kitabı Tehranda "Xudafərin" nəşrlər evində fars əlifbası ilə çap olunmuşdur. Azərbaycan Yazıçılar Birliyinin tərtib etdiyi "Azərbaycan uşaq ədəbiyyatı antologiyası"nda (2014),




Azərbaycan Respublikası Təhsil Nazirliyinin əmri ilə təsdiq edilmiş "Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı"na dair "Müntəxəbat" dərsliyində İbrahim Yusifoğlunun silsilə şeirləri verilmişdir.

Dövri mətbuatda ən ardıcıl şəkildə dərc olunan İbrahim Yusifoğlu "Ulduz", "Vətən nəğməsi", "Göyərçin", "Pioner", "Günəş", "Uşaqlar və Günəş", "Herba və flora", "İbtidai məktəb", "Azərbaycan qadını", "Kənd həyatı" kimi jurnal və toplularda, "Şərurun səsi", "Şərq qapısı", "Azərbaycan müəllimi", "Çik-çik", "Azərbaycan pioneri", "Savalan", "Tumurcuq", "Təhsil problemləri" ,"Ədəbiyyat", "Ədalət", "Kredo" və digər qəzetlərdə uşaq şeirləri və publisistik yazılarını müntəzəm olaraq oxuculara çatdırmaqda davam edir. Bu şeirlərdə, poemalarda və mənzum pyeslərdə uşaqlar öz dünyalarına qovuşur, öz şirin və şıltaq günlərini yaşayırlar. "Qıymayın uşaqlara" şeirində müəllif körpə fidanları öz şirin röyalarından ayrı salanlara, qönçə ikən onları dünyaya göz yumduranlara qarşı etiraz səsini ucaldır:

*Ay, Günəş istəyirlər*
*Nur ələnsin cahana.*
*Şeh, yağış diləyirlər*
*Təbiət gəlsin cana.*
*İstəyirlər gül, çiçək*
*ətri çöksün hər yana.*
*Raketləri, topları*
*Tuşlamayın onlara.*
*Tanrıdan gələn səsdi:*
*– Qıymayın uşaqlara!*

50 ildir ki, fəaliyyət göstərən "Şərur" ədəbi birliyi – Naxçıvan Yazıçılar Birliyinin Şərurdakı yaradıcılıq bazasıdır. Bu ədəbi birlik Azərbaycan ədəbiyyatına həm təcrübəli qələm sahibləri olan yazıçılar və şairlər, həm də yeni imzalar bəxş etməkdə davam edir. Azərbaycanın ayrılmaz parçası Naxçıvan diyarının bənzərsiz bölgəsi olan qədim və həmişəcavan Şərurun bədii obrazı, nağıllı-əfsanəli Arpaçayın poetik səsi, elmi-publisist salnaməsi Şərur ədəbi birliyində formalaşır. Bu ədəbi birlik Dədə Qorqud yurdu Şərurun sabahına gur işıq salır. Tanınmış şair və publisist İbrahim Yusifoğlunun otuz ildən çox bu ədəbi birlikdəki "Məliküş-Şüəralığı", təşkilatçılıq fəaliyyəti ilə səmərəli yaradıcılıq işi yeni-yeni nəsillərin qələmdən ürəklə yapışmalarına dəstək vermişdir.

Çoxcəhətli yaradıcılıq fəaliyyətinə malik olan İbrahim Yusifoğlunun yaradıcılığında poema janrında yazılmış əsərlərin özünəməxsus yeri vardır. Janr baxımından onun poemaları liro-epik əsərlərdir. Şair poemalarında seçilmiş həyat hadisələrinin təsviri ilə lirik düşüncələr bir-birini tamamlayır.

Eyni zamanda İbrahim Yusifoğlunun uşaqlar üçün yazdığı mənzum pyeslərdə ibrətamiz, tərbiyəvi xarakterə malik olan hadisələri, uşaq dünyasının incəliklərini şairanə şəkildə təqdim edir. İbrahim Yusifoğlunun bir çox uşaq pyesləri Azərbaycan ədəbiyyatında bu janrda yazılmış ən yaxşı əsərlər sırasındadır. Onun ən yaxşı uşaq pyesləri böyük səhnə üçün faydalı ola bilən əsərlərdir.

İbrahim Yusifoğlunun hazırda 5 cildlik "Seçilmiş əsərləri" çapa hazırlanır. Artıq oxucuların ixtiyarına verilmiş 4 cildindəki şeir külliyyatı onun çoxillik bədii yaradıcılığının böyük bir dövrünün yekunudur. Oxuculara təqdim olunmuş bu kitablardakı şeirlər, poemalar, mənzum pyeslər istedadlı qələm sahibinin ədəbiyyata, şeirə ürəkdən bağlı olduğunu, özünü poeziyada tapdığını və bu yolda şair kimi ədəbiyyatımızın inkişafına ləyaqətlə xidmət göstərdiyini bütöv şəkildə əks etdirir. Bu mənada, hər yeni şeirlər külliyyatı şairin həm də bundan sonrakı yaradıcılıq fəaliyyətinin başlanğıcıdır. Onun müstəqil Azərbaycanın yeni gələn nəsillərinə demək üçün sözü hələ çoxdur:

*Qırx ildir, qələmlə külüng çalıram,*
*Hələ Fərhad arxı qazmamışam mən.*
*Göylərdən,yerlərdən ilham alıram,*
*Hələ öz şeirimi yazmamışam mən, –*

deyən, ömrünün və yaradıcılığının ən yetkin çağını yaşayan İbrahim Yusifoğlu yeni dövrün ən yaxşı maarifçi poeziyasını və uşaq şeirini yaratmaqda davam edir. Ona bundan sonra da həyatında və ədəbi yaradıcılığında uğurlar arzulayıram.

**İsa HƏBİBBƏYLİ**
***AMEA-nın vitse-prezidenti, akademik***

# İnam və əzmin uğurlu nəticələri

*Builki qəbul imtahanlarında yüksək bal toplayan məzunlarımız təkcə bir ailənin, bir pedaqoji kollektivin yox, elimizin-obamızın fəxri-sevincidir. Onları siz oxucularımıza da tanıtmaqda davam edirik.*



I ixtisas qrupu üzrə 676 bal toplayaraq ***muxtar respublika ikincisi olan Oğuz Həsənli*** söhbətimizdə bildirdi: – 2004-cü il aprelin 16-da Culfa rayonunun Bənəniyar kəndində anadan olmuşam. Əvvəlcə rayonun Əbrəqunus, sonra isə Bənəniyar kənd məktəbində təhsilimi davam etdirmişəm. Muxtar respublika üzrə keçirilən bilik yarışlarında, fənn olimpiadalarında, dəqiq fənlər üzrə (fizika, kimya, riyaziyyat) Bakıda keçirilən beynəlxalq olimpiadada iştirak etmişəm. Naxçıvan şəhərində təşkil edilən fənn olimpiadasında riyaziyyat fənni üzrə III yer tutaraq diploma layiq görülmüşəm. XI sinfi "Qızıl" nişanla bitirmişəm. Boş vaxtlarımda idmanla məşğul oluram. Şahmat, tennis, voleybol oynayıram. Muxtar respublikada şahmat üzrə keçirilən yarışlarda iştirak edərək diploma layiq görülmüşəm. Builki qəbul imtahanında yüksək nəticə əldə etmişəm. Buna da özümə inanaraq və əzmlə çalışaraq nail olmuşam. Mənə həm orta məktəbdə, həm də kursda dərs deyən atamın dəstəyi çox olmuşdur.

Oğuzun atası Malik Həsənovla həmsöhbət oluruq. Müsahibim bildirir ki, Naxçıvan şəhərində "İstedad-XXI əsr" hazırlıq kurslarında riyaziyyat fənni üzrə dərs keçir. Kursda muxtar respublika birincisi olan İlhamə Novruzovaya da iki il dərs demişəm. Oğlum Oğuzun isə orta məktəbdə, kursda, eləcə də evdə müəllimi olmuşam. Bu gün onun həm valideyni, həm də müəllimi kimi çox sevinciyəm. O, imtahanda yüksək bal toplayaraq muxtar respublika ikincisi olub. Həmişə dərslərinə məsuliyyətlə yanaşıb, çalışıb və elm öyrənməyə çox həvəsli olub. Riyaziyyatdan çətin tipli misalların həllində maraqlı idi. Qəbul imtahanında da yüksək bal toplayacağına inanırdıq. Oğuzun uğur qazanmasında ona dərs deyən müəllimlərinin, həmçinin oxuduğu məktəbdə keyfiyyətli təhsil üçün yaradılan müasir şəraitin rolu danılmazdır. Mən bu yolda əziyyət çəkən hamıya minnətdarlığımı bildirir, oğluma isə ali təhsil yolunda uğurlar arzulayıram.

Oğuz Bakı Ali Neft Məktəbində Proseslərin avtomatlaşdırılması mühəndisliyi ixtisası üzrə (tədris ingilis dilində) təhsilini davam etdirmək istəyir. Deyir ki, gələcəkdə magistratura təhsili də alacaq, xalqına və dövlətinə ləyaqətlə xidmət edəcək.

***Culfa rayonunun Əlincə kənd tam orta məktəbinin məzunu Hayal İsmayıllı*** isə III ixtisas qrupu üzrə 655 bal toplayıb. O, uğurlu nəticə əldə etdiyi üçün sevinclidir. Müsahibim söhbət zamanı dedi ki,



Naxçıvan şəhərində təşkil edilən Azərbaycan dili və ədəbiyyatı fənni üzrə olimpiadada "Gümüş" medal qazanmışam. Mənim uğur qazanmağımda ailəmin və müəllimlərimin böyük rolu vardır. Üzərimdə əziyyəti olan müəllimlərimə çox sağ olun deyirəm. Naxçıvan Dövlət Universitetinin Sosial idarəetmə və hüquq fakültəsində təhsilimi davam etdirmək və gələcəyin peşəkar hüquqşünası olmaq istəyirəm. Naxçıvan mənə həm məkan, həm də ali təhsil almaq üçün yaradılan müasir şərait cəhətdən çox əlverişlidir. Ona görə də təhsilimi Naxçıvanda davam etdirəcəyəm.

Əlincə kənd tam orta məktəbinin direktoru Etibar Qurbanovla həmsöhbət oluruq. Müsahibim qeyd edir ki, builki qəbul imtahanlarında məktəbin əldə etdiyi nəticəyə görə bütün kollektiv sevinclidir. Bütün bunlar ilk olaraq muxtar respublikada təhsilə göstərilən davamlı dövlət qayğısının bariz nümunəsidir. Qeyd edim ki, builki məzunumuz Hayal İsmayıllı dərslərinə həmişə hazırlıqlı olan şagirdlərimizdən biri idi. Onun bu məsuliyyəti qəbul imtahanının nəticəsində də özünü aydın göstərdi və məktəbimizin adını uca etdi. İnanırıq ki, ali məktəbdə də o, yaxşı oxuyacaq və gələcəyin peşəkar, müasir dünyagörüşlü gənci kimi formalaşıb, muxtar respublikanın, eləcə də ölkəmizin adını uca tutacaq. Ona bu yolda müvəffəqiyyət arzu edirəm.

***Tərlan İbrahimova III qrupda 420 bal toplayıb.*** O, Sədərək kənd bir nömrəli tam orta məktəbin məzunudur. Jurnalistika ixtisasını seçmək fikrindədir. Onun söhbəti: – Uşaq vaxtlarımdan kəndimizə gələn jurnalistlərə həsəd aparar, onların gördüklərini sözlərə necə sığdırdıqları məni maraqlandırardı. Orta məktəbin yuxarı siniflərində oxuyanda bu peşəyə marağım daha da artdı. Məktəbimizdə keçirilən inşa yazı müsabiqələrində iştirak etməyə başladım. Bildiyimə görə, bu gün Naxçıvan Dövlət Universitetində bir yaradıcı adamın yetişməsi üçün lazımi şərait mövcuddur. Bu ixtisası seçməzdən əvvəl oradakı imkanlarla maraqlananda öyrəndim ki, Universitet televiziyası, radiosu, qəzeti fəaliyyət göstərir. Yaradıcılıq azadlığı, sərbəstlik, özünəinam hissi bura üz tutan hər bir gənc üçün təmin edilib. Hədəfimə çatmağa bir neçə addım qalıb və mən çalışıram, bu addımları elə atım ki, gələcəkdə xalqıma, Vətənimə layiq bir fərd olum.



*Hər bir valideynin arzularından biri də övladının təhsil alması və gələcəkdə layiqli yer tutmasıdır. Bizim övladımıza verəcəyimiz ən böyük xəzinə, miras təhsildir. Çünki bu xəzinə bitmək-tükənmək bilməyən yeganə var-dövlətdir. Bunun üçün valideyn daim çalışır, zəhmət çəkir və onu gələcəkdə bir sənətə, peşəyə yiyələnən biri kimi görməyi arzulayır. Bu gün valideynlər övladlarının uğurunun, tələbə adını qazananlar isə bu adın sevincini yaşayır. Bütün bunlar isə gələcəyimiz olan gənclərə göstərilən dövlət qayğısından xəbər verir.*

**Güntac ŞAHMƏMMƏDLİ**
**Ramiyyə ƏKBƏROVA**

Təhsil millətin gələcəyidir

# İxtisas seçimi: nələrə diqqət edilməlidir

*Artıq ixtisas qrupları üzrə qəbul imtahanları sona çatıb. Bundan sonra bütün qruplar üzrə növbəti mərhələyə adlayan abituriyentlərin qarşısında düzgün ixtisas seçmək kimi əhəmiyyətli bir məsələ durur. İxtisas seçimini necə düzgün şəkildə həyata keçirmək olar? Mütəxəssislərin fikrinə görə, hər bir abituriyent seçə biləcəyi universitetləri, münasib ixtisasları qabaqcadan dəqiqləşdirməlidir. Bundan başqa, iş dünyasının hansı universitetin məzunlarına daha çox etibar etdiyini də araşdırmaq lazımdır. Çünki bu, gələcəkdə məzun olacaq tələbələrə bilik və təcrübə ilə yanaşı, işəgötürən müəssisə tərəfindən verilən müsbət qiymət kimi də dəyərləndiriləcək. Gənclərin əksəriyyəti ixtisas seçərkən onun prestijli olmasını əsas tuturlar. Onlar istəyirlər ki, ixtisasları sosial tələblərə cavab versin. İş yeri seçimində digər amil olaraq əməkhaqqını əsas götürən gənclər də az deyil. Lakin unutmamaq lazımdır ki, ixtisasa görə yox, vəzifəyə görə əməkhaqqı ödənilir. Aydın olur ki, yüksək maaş üçün ixtisasın düzgün seçilməsi heç də əsas amil deyil. Ödəniş haqqı təkcə bilik və bacarıqlarla deyil, eyni zamanda onun işləmə həvəsindən və işinə qarşı olan məsuliyyətindən də asılıdır. Növbəti amil kimi işin ağırlıq dərəcəsi götürülür. Bu isə ixtisasdan çox iş yerindən asılıdır. Yüksək professionallıq dərəcəsi işin daha da asanlaşdırılması deməkdir.*



***Təhsil professionallığa söykənməlidir…***

Bəzi hallarda isə aparıcı motiv təhsilin mümkünlük dərəcəsidir. Belə insanlar mənimsənilməsi daha asan olan ixtisaslara yiyələnməyə çalışırlar. Misal üçün, yaşayış yerinə daha yaxın olan, münasib qəbul balı və sair bu kimi faktorları əsas götürərək gələcək ixtisaslarının seçimini edirlər. Təhsilin keyfiyyəti isə onun maddi dəyərindən deyil, onu tədris edən müəllimin professionallığından asılıdır. İxtisas seçimində ən önəmli faktorlardan biri abituriyentin topladığı balın miqdarıdır. Çünki abituriyent ixtisas seçimindəki sıralamanı topladığı bala uyğun olaraq müəyyənləşdirir. Yüksək bal toplayan abituriyentlər üçün ixtisas seçimi çətinlik yaratmır, yəni onlar hansı ixtisası öz potensiallarına uyğun hesab edib seçirlərsə, həmin ixtisasa da qəbul olmaq ehtimalları çox olur. 600 və 700 bal toplayan abituriyentlər hansı sahənin mütəxəssisi olmaq istəyirlərsə, buna asanlıqla yiyələnə bilirlər. Ballar aşağı düşdükcə isə, heç şübhəsiz, abituriyentlər ciddi seçim qarşısında qalırlar. Əsasən, 300-400 bal toplayan abituriyentlər böyük risk altında olur və onların əsas məqsədi istədiyi ixtisası seçmək yox, hansı ixtisas olursa-olsun, universitetə qəbul olmaq olur. Abituriyentin balı aşağı düşdükcə seçdiyi ixtisaslarda mütəxəssis olma ehtimalı azalır və bu ixtisas üzrə təhsilini davam etmək istəyinə mənfi təsir göstərir.

***Düzgün seçim necə edilməlidir?***

İxtisas seçərkən ilk ikisini topladığı baldan bir az yuxarı bal tələb edən ixtisaslar yazılmalıdır. Bundan sonra isə ideal seçim sırası edilməlidir. Burada da əsas olaraq abituriyentin istəyi ön planda olmalıdır. Ümumiyyətlə, abituriyent oxumaq istəmədiyi ixtisasları seçməməlidir. Abituriyentin ixtisas seçərkən diqqət etməli olduğu əsas məsələlərdən biri də ixtisaslar üzrə plan yerlərini, müsabiqədə iştirak edən abituriyentlərin topladıqları balların paylanması üzrə saylarını, öz fərdi imtahan göstəricilərinin bu sıralanmadakı yerini müəyyən edərək ona əsasən kodlaşdırma aparmasıdır. İxtisas seçimində ən çox istifadə edilən forma ötən illərin tələbə qəbulu müsabiqəsində ayrı-ayrı ixtisaslar üzrə formalaşmış keçid ballarını nəzərə alaraq seçim etməkdir.

***Abituriyentin 3 əsas xarakteri...***
***Arzulayın və arzunuza doğru gedin***

Yadda saxlamaq lazımdır ki, bütün ixtisaslar lazımlı və faydalıdır. Lakin bütün bu ixtisaslardan biri sizə daha yaxındır. Nəyə qarşı istedadınızın olduğunu aşkara çıxarmaq lazımdır. Yəqin ki, məktəbdə siz də hər hansı bacarıq və qabiliyyətinizə görə digər şagirdlərdən fərqlənməyi bacarırdınız. Belə isə özünüzə bu sualla müraciət edin: “Mənim istedadım nəyə qadirdir?”

Üç xüsusiyyət üç tapmacadır. Sizi xarakterizə edən üç əsas keyfiyyətinizi müəyyən edin. Çox vaxt bu təhlil metodu sizi axtardığınız cavaba doğru aparacaq. Xarakterinizin bir xüsusiyyətini deyil, üçünü birlikdə təhlil edin. Məntiqinizin səsi – bu mümkün deyil, – deyə səslənə bilmədiyi zamanlarda, uşaq olarkən nəyi arzu edirdiniz? Güclü olmağı və hər kəsə qalib gəlməyi arzu edirdiniz? Ola bilsin, siz gələcəyin idmançısısınız. İnsan peşəsinə qarşı sevgi, həvəslə işləmədikdə çətin ki, işdə böyük uğurlara nail olsun. O, adi, sıradan bir işçi olaraq qalacaq. Lakin insan arzusunda olduğu ixtisası seçdikdə, nəinki yüksək nəticələrə nail olacaq, həmçinin işdə də hər zaman uğur qazanacaqdır. Arzulayın və arzunuza doğru gedin.

***Məntiqinizə söykənin, gələcəyin mütəxəssisi olun***

Əgər məntiqiniz daha çox tələbatın olduğu peşəni seçməyinizi tələb edirsə, 10 ildən sonra hansı peşəyə daha çox tələbatın olacağını aydınlaşdırın. Ola bilsin ki, bu seçiminizlə uzun illər boyu özünüzü təmin edə bildiniz. İnsanlar sizinlə eyni addımlaya bilər, lakin sizi ötüb keçə bilməzlər. Bir çoxları valideynlərinin təklif etdiyi ixtisasları seçirlər. Bəs gələcəkdə bu ixtisasda kim işləyəcək? Başqalarının arzularını reallaşdırmayın. Əksər insanlar uğur qazanmış insanların həyat tarixçələrini oxuyaraq onları özlərinə ideal şəxs olaraq seçir və onların uğurlarını təkrarlamağa çalışırlar. Uğur qazanmış insanların tarixçələrini oxuyun. Ola bilsin, onlar sizə motivasiya qazandıracaq və nə istədiyinizi onlar sizə deyəcək. İxtisas seçərkən, onu özünüzə görə seçin. Beləliklə, gələcəyin ən yaxşı mütəxəssislərindən birinə çevrilin.



***Ailə peşə seçiminə necə təsir edir?***

Peşə seçiminə təsir edən əsas faktorlardan biri məhz ailədir. Demək olar ki, bir çox uşaqlı ailələri düşündürən əsas sual da övladlarının “Böyüyəndə kim olacaq?” sualıdır. Ümumiyyətlə, peşə seçimi elə bir anlayışdır ki, biz özümüzə hər hansı bir ixtisas seçməklə bir növ gələcək həyatımızı da zəmanət altına almış oluruq. Araşdırmaya görə, Azərbaycanda 65 faiz ailə öz övladına ixtisas seçimində nələrisə təlqin etməyə çalışır. Valideynlər onları arzusunda olduğu, ancaq yiyələnə bilmədikləri ixtisaslara yönəldirlər. Belə halda isə övladlarının əvəzinə seçimi valideynlər etmiş olur. Valideynlərin fikirlərinə əsaslanarkən gənclər öz arzu, istək və bacarıqlarını nəzərə almırlar. Doğrudur, hər bir valideyn övladının uğur qazanmasını istəyər. Əfsuslar olsun ki, bu gün əksər valideynlər öz övladlarını nə vaxtsa reallaşdıra bilmədikləri arzularını tamamlamağa və ya prestijli peşəyə sahib olmağa məcbur edirlər. Bu təsir o zaman uğurlu nəticə verə bilər ki, valideyn övladının hər hansı bir sahədə qabiliyyətini görüb və onu həmin sahə üzrə istiqamətləndirə bilsin. Zamanında verilmiş düzgün qərarlar nəticəsində gəncin peşə seçimi problemi həll olunur. Ancaq reallıq onu göstərir ki, ailələrin övladlara birbaşa təsiri heç də həmişə müsbət nəticələnmir. Gəlin etiraf edək ki, bir çox valideynlər övladlarını elə öz çalışdığı sahələrdə görmək istəyir. Bu zaman isə meydana “valideynin peşəsinin davamçısı, ailə dəyərlərinin qoruyucusu bir övlad anlayışı çıxır. Mövzunun daha dərininə getsək, bir çox mə-



qamlarda valideynlərin övladlarına peşə seçimi ilə bağlı psixoloji təsirlərini aydın şəkildə görə bilərik. Nədənsə valideynlər düşünür ki, əgər onlar bir sahədə uğur qazanıbsa, eyni nəticəni övladları da göstərəcək. Genetik amilləri nəzərə alsaq, valideynlərə bu baxımdan haqq qazandırmaq olar. Amma hər şeyi də irsiyyətin üzərinə atmaqla iş həll olunurmu? Əgər valideyni həkim olan birinin marağı başqa sahəyədirsə, niyə özünü o sahədə sınamasın? Gənclərin peşə seçimində ailələrin onlara dolayı yolla təsiri isə daha çox rast gəlinən hallardandır. Məsələn, gənc həyatının erkən vaxtlarından yaşadığı ailədə valideynlərinin iş prosesi ilə tanış olur, onun gündəlik vəzifəsi və ya çalışdığı sahə haqqında məlumat əldə edir. Əgər bu informasiyalar ona gələcək üçün kifayət edirsə, dolayısı ilə seçəcəyi peşə də valideynin peşəsi ilə eyniyyət təşkil edəcəkdir. Təbii ki, ixtisasdan asılı olaraq gənc fikrini dəyişsə, valideynlərinin peşəsindən tam fərqli bir sahədə özünü sınamağa cəhd göstərə də bilər. Bu hal isə özünü daha çox valideynin peşəsinin ona qazandırdığı maaşdan birbaşa olaraq asılıdır. Məlum olduğu kimi, əksəriyyət daha yüksək maaşı olan, cəmiyyətdə yaxşı statusa malik peşələrə yiyələnmək istəyir. Yuxarıda qeyd etdiyimiz peşənin – “gələcək həyata zəmanəti” olması anlayışı burada öz təsdiqini tapır. Çünki normal şəkildə yaşamaq, öz istək və tələbatlarını ödəmək üçün maddi vəziyyətin yaxşılaşdırılması insanların həyatını da asanlaşdıracaq. Bu baxımdan da gənclər məhz yüksək maaşlı ixtisasları seçməyə meyilli olurlar. Valideynin peşəsi kifayət qədər yaxşı qazanc bəxş edirsə, gəncin də həmin sahəni seçmə ehtimalı yüksək olacaqdır. Hər bir halda ailələrin həm birbaşa, həm də dolayı təsiri gənclərin bu mövzudakı qərarlarında rol oynayacaqdır. Burada isə diqqət yetirilməli olan əsas məsələ ailələrin zamanında övladlarının qabiliyyətinin fərqində olmaq, onları düzgün istiqamətləndirməkdir. Əlbəttə, valideynlər öz uşaqlarını daha yaxşı yerdə görmək, uğurlu mütəxəssis olmağını istəyir. Ancaq bu o demək deyil ki, gənclər mütləq şəkildə valideynin peşəsini davam etdirməlidir. “Mən bu sahədə uğur qazanmışamsa, övladım da eyni nəticəni göstərəcəkdir” fikrini özünüzdən uzaqlaşdıraraq, ona daha yaxşı seçimlər təklif edə bilərsiniz.

*Əziz abituriyentlər! Artıq arzuladığınız peşəyə çatmağın bir addımlığındasınız. Çalışıb ixtisas seçimində də düzgün qərar qəbul etmək lazımdır ki, bu, gələcək həyatınızın karyerasının qurulmasında vacib amildir. Seçim zamanı bu sahənin mütəxəssisləri ilə də məsləhətləşməyi unutmayın. Necə ki, atalar sözümüzdə deyiblər: “Yüz ölç, bir biç”. Siz də düzgün seçim edin ki, istirahətsiz, yuxusuz günləriniz hədər getməsin.*

**Arzu ABDULLAYEV**
***Naxçıvan Dövlət Universitetinin baş müəllimi***

## Karateçimiz Avropa çempionu olub

Finlandiyanın Tampere şəhərində keçirilən 14-15 yaşlı yeniyetmələrin və 16-17 yaşlı gənclərin 48-ci Avropa çempionatı, 21 yaşadək gənclərin isə 13-cü qitə çempionatı davam edir. Azərbaycan Avropa çempionatında 24 karateçi və 5 hakimlə təmsil olunub. Onlardan biri də Naxçıvan Karate-do Federasiyasının idmançısı, hazırda karyerasını millinin heyətində davam etdirən Rəşid Süleymanovdur.



Yeniyetmə idmançımız qitə birinciliyində gün ərzində 5 görüş keçirib. İlk üç qarşılaşmada Devid Frederikson (Danimarka), Fran Host (Xorvatiya) və Zuniqa Mateonu (Almaniya) məğlub edən təmsilçimiz yarımfinal mərhələsində rusiyalı Kiril Miçko üzərində əldə etdiyi qələbə ilə adını finala yazdırıb. Həlledici görüşdə belaruslu Artem Şaruba ilə qarşılaşan Rəşid Süleymanov 6:0 hesablı nəticə ilə Avropa çempionu tituluna yiyələnib. Azərbaycan idmançıları yarış gününü, ümumilikdə, 2 qızıl və 1 bürünc medalla tamamlayıblar.

Qeyd edək ki, Avropa çempionatında 45 ölkədən 996 idmançı mübarizə aparır.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** *Hansı obyektlərin tikintisinə məlumatlandırma icraatı tələb olunur?*

***Cavab:*** Şəhərsalma və tikinti qanunvericiliyinə əsasən mülkiyyətində, icarəsində və ya istifadəsində olan torpaq sahəsində təyinatı üzrə yerüstü mərtəbələrinin sayı 3-dən, hündürlüyü 12 metrdən (binanın hündürlüyü “0” səviyyəsindən, yəni birinci yerüstü mərtəbənin döşəməsinin üst hissəsindən sonuncu mərtəbənin örtüyünün alt hissəsinədək (çardaqaltı döşəmənin alt hissəsi) və aşırımlarının uzunluğu 6 metrdən çox olmayan fərdi yaşayış evlərinin tikintisi ilə bağlı məlumatlandırma icraatı həyata keçirilir və onların tikintisi üçün tikinti layihəsinin yalnız zirzəmilərin, mərtəbələrin, dam örtüklərinin planlarından, kəsiklərdən, fasadlardan ibarət memarlıq-planlaşdırma və tikinti ərazisinin baş planı bölmələrinin hazırlanması tələb olunur.

Barəsində məlumatlandırma icraatının tətbiq edildiyi tikinti obyektlərinin tikintisinə icazənin alınması tələb olunmur. Sifarişçi tikintiyə başlamazdan əvvəl tikinti niyyəti barədə müvafiq icra hakimiyyəti orqanına məlumat verir. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən 10 gün müddətində layihəyə dair irad sifarişçiyə təqdim edilmədikdə, sifarişçi tikinti işlərinə başlaya bilər. Barəsində məlumatlandırma icraatı tətbiq edilən tikinti obyektlərinin tikinti layihəsinin memarlıq-planlaşdırma və tikinti ərazisinin baş planı bölmələrinə uyğun tikilməsinə nəzarəti müvafiq icra hakimiyyəti orqanı (Fövqəladə Hallar Nazirliyi) həyata keçirir.

Müvafiq icra hakimiyyəti orqanı (yerli icra hakimiyyəti orqanı) qanunvericiliklə müəyyən edilən müddətlər (10 gün) bitdiyi gündən 3 iş günü ərzində tikinti layihəsi barədə müvafiq məlumatı Tikintilərin Dövlət Reyestrinə təqdim edir. Həmin məlumatlar 3 iş günü ərzində Tikintilərin Dövlət Reyestrinin internet səhifəsində yerləşdirilir.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsi***

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
*E-mail: serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Nail Əsgərov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Ədəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1500. Sifariş № 683